Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası



Şair Zeynal Cabbarzadənin anadan olmasının 95 illik yubileyi münasibətilə

# Xalqımızın nəğməkar şairi

**Bakı – 2015**

Tərtibçi: **Nərgiz Məcidova**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Xalqımızın nəğməkar şairi:** Zeynal Cabbarzadənin 95 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait / tərt. ed. N. Məcidova; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 30 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

**Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda, Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir...**

**Heydər Əliyev**

Uşaq ədəbiyyatının başlıca vəzifəsi böyüməkdə olan nəslin etik və estetik tərbiyəsinə istiqamət vermək, milli və bəşəri ideyalara hörmət və sədaqət, vətənpərvərlik, humanizm, əməksevərlik, dostluq, yoldaşlıq, düzlük və doğruluq kimi mənəvi – estetik keyfiyyətlər aşılamaqdır. Uşaq şeirinin ilk kamil nümunələrini M.Ə. Sabir, A. Səhhət, A.Şaiq kimi görkəmli nümayəndələr yaratsalar da, XX əsrin gənc şairləri onlardan bəhrələnib istifadə etmişlər. Buna görə XX əsr Azərbaycan uşaq şeiri daha professional və rəngarəng olmuşdur. Bunun bir səbəbi də məktəblərin, maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanaların yaradılmasının bu illərə təsadüf etməsidir. Çunki bu təhsil və tərbiyə ocaqlarında yeni məzmunlu dərsliklərin yaranması lazım idi. Uşaq ədəbiyyatı ilə məşğul olan yazıçılar bu dərsliklərdə yeni şeirlərini çap etdirməyə çalışırdılar. Elə dövrünun nəhəng şairi M.Ə.Sabir Şamaxı və Bakı məktəblərində müəllimlik edərkən uşaq ədəbiyyatının kasadlığını hiss edib müxtəlif mövzularda xeyli şeir yazmışdır. Bu əsərlər nəsihətamiz mənzum hekayə və şeirlərdən, məktəb şərgilərindən, habelə təmsillərdən ibarət olub, uşaq ədəbiyyatımızı zənginləşdirmişdir ki, elmin səmərəsindən, elmlə insanın öz arzularına, işıqlı günlərə qovuşmasından, vətənə, xalqa xidmətdən bəhs edilirdi. Uşaqların şüurunda vətəndaşlıq və vətənpərvərlik hissi oyadırdı. Abbas Səhhət, S.S.Axundov iri həcmli pyesləri ilə yanaşı, uşaqların həyatından bəhs edən yığcam hekayələr yazmışdır. şair, nasir, dramaturq həm də əsl xalq müəllimi, həm də pedaqoq və ictimai xadim olan A.Şaiqi

ədəbiyyatımızda məşhur edən, böyük hörmət qazandıran onun uşaq ədəbiyyatı sahəsindəki xidməti olmuşdur.

Əlbəttə, bugünkü uşaq ədəbiyyatının yaradıcıları adlarını saydığımız yazıçılarla məhdudlaşmır. Son illərdə uşaq ədəbiyyatına meyl göstərən yazıçılarımızın sayı xeyli artmışdır. Onlar ədəbi ənənələrə sadiq qalmaqla, öz dəst-xətti ilə seçilməyə, yeni gözəl əsərlər yaratmağa çalışırlar. Müstəqil Azərbaycanın yetirməsi olan yeni ədəbi qəhrəman obrazı formalaşdırılmasının uşaq ədəbiyyatının borcu və vəzifəsi olduğunu diqqətə çatdıran akademik İsa Həbibbəyli, Əjdər Ol, Sevinc Nuruqızı, Qəşəm İsabəyli, Qəşəm Nəcəfzadə, Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, İbrahim Yusifoğlu və başqaları kimi yeni nəsil uşaq yazıçılarının ardıcıl olaraq

əsərlərinin çap olunduğunu, hətta Qəşəm İsabəylinin Beynəlxalq Andersen mükafatına, Reyhan Yusifqızının Türk dünyası üzrə uşaq ədəbiyyatı mükafatına layiq görüldüklərini xüsusi vurğulayıb.

70- ci illərdən etibarən Pioner qəzetinin redaktoru olmuş Zeynal Cabbarzadənin şeirləri də öz dövründə, bu gün də kiçikyaşlılar tərəfindən sevilir.

## Həyat və yaradıcılığı:

Uşaqların sevimlisi, oxucuların həvəslə dinlədikləri gözəl mahnıların müəllifi, şair, Zeynal Cabbarzadə 1920-ci il dekabrın 31-də Bakının Bilgəh kəndində dənizçi ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1937-1941-ci ildə APİ-nin ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir. Kiçik yaşlarından yaradıcılığa başlamış Zeynalın "Puşkin" adlı ilk mətbu şeri 1937-ci ildə dərc edilmişdir. İkinci Dünya müharibəsi illərində və sonra coşğun yaradıcılıq fəaliyyəti göstərmiş Zeynal Cabbarzadə 1943-cü ilin aprelindən 1948-ci ilin oktyabr ayınadək Azərbaycan Yazıçılar İttifaqında "Natəvan" adına klubun müdiri, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi, "Pioner" jurnalının məsul katib vəzifələrində işləmişdir. 1950-ci ildən ömrünün sonunadək məsul redaktor olmuşdur. Bu müddətdə dəfələrlə Azərbaycan LKGİ MK-nın rəhbər orqanlarına seçilmişdir. Onun 1946-cı ildə çap edilmiş ilk kitabı olan "Xanıman"da cəbhə şeirləri toplanmışdır. Xidmətlərinə görə bir sıra medal və Fəxri fərmanlarla təltif edilmişdir. Eyni zamanda 1938-1939-cu illərdə "Balıq cəbhəsi", 1939-1940-cı ildə " Krasnı kurinets " ( Qırmızı kürçaylı ) qəzeti redaksiyalarında işləmişdir. Müəllim kimi ilk Əmək fəaliyyətinə Pirallahı adasındakı fəhlə yataqxanasında tərbiyəçi müəllim kimi başlamışdır. Sonra Mədəniyyət Nazirliyində, İncəsənət Universitetində və uşaq mətbuatında çalışmışdır. Göyçayda "Arvan" adlı kitabxana-muzey açaraq iyirmi mindən artıq öz kitabını, yüzlərlə etnoqrafik əşyasını, uzun illər ərzində topladığı xeyli rəssamlıq və heykəltəraşlıq əsərlərini uşaqlara hədiyyə etmişdir.

1940-cı ilin yanvar-iyun aylarından Şamaxı rayonunun Mədrəsə kənd orta məktəbində dil və ədəbiyyat müəllimi kimi işə dəvət alan şair İkinci Dünya müharibəsi başlanan il avqustun 1-də səfərbərliklə əlaqədar hərbi təhsil almaq üçün Ə. Əlibəyli, M. Aranlı, B. Qasımzadə ilə birlikdə Suxumiyə

göndərilir. Hələ orta məktəbdə oxuyarkən, şeir və məqalələrini qələmə alaraq Ədəbiyyat qəzetinə göndərən Zeynal Cabbarzadə cəbhədə də öz təəsüratlarını qələmə alıb, Bakıya Ədəbiyyat qəzetinə göndərir. Kiçik leytenant rütbəsi ilə 416-cı atıcı piyada diviziyasında hərbi xidmətdə olan Zeynal Cabbarzadə Hərbi əməliyyatlardan birində - Naursk rayonunda ağır zədələndiyindən eşitmə və görmə qabiliyyətini itirir. 1943-cü ildə isə səhhəti ilə bağlı hərbi xəstəxanadan Baş leytenant rütbəsi ilə ordudan tərxis olunur.

Bakıda Hərbi xəstəxanaların birində yatan Zeynal Cabbarzadə orada da, qələmini yerə qoymur, yazdığı şeirlərini Yazıçılar İttifaqına göndərir. Xalq şairi Səməd Vurğun onun səhhətindən xəbər tutub göndərdiyi şeirlərini "Ədəbiyyat" qəzetində çap etdirir. Özünü isə Yazıçılar Birliyinə üzv qəbul etdirir. Zeynal Cabbarzadə sağalıb xəstəxanadan çıxandan sonra " Ədəbiyyat " qəzetində məsul katib və redaktor vəzifəsində çalışır.

Respublikamızın adlı-sanlı şairlərindən olmuş Zeynal Cabbarzadə uzun illər keçmiş Sovetlər birliyində uşaqlar üçün nəşr olunan "Pioner" indiki "Günəş" jurnalının baş redaktoru olur. Nəğməkar şair kimi tanınan Zeynal Cabbarzadə uşaqlar üçün 250-dən çox rəngarəng mahnıların musiqisinə şeirlər yazmışdır. 1950-ci ildə Zeynal Cabbarzadənin Sülh şeirinə ilk mahnını böyük bəstəkar Qara Qarayev bəstələmişdir.

Ana yurdun qucağında
Boy atırıq azad, şən.
Bəslər bizi,
Səslər bizi,
Xoş günlərə bu Vətən...

Bundan əlavə Fikrət Əmirovun "Quşlar", "Qatar", "Bahar gəlir" mahnılarının sözləri Zeynal Cabbarzadəyə məxsusdur. Öz şeirləri və mahnıları ilə mədəniyyətimizə, musiqimizə

xidmət edən Zeynal Cabbarzadə bir çox filmlərimizə bəstələnmiş mahnıların sözlərini də yazmışdır. “Ögey ana”, “Koroğlu”, “Magistral”, eləcədə “Səndən mənə yar olmaz” operettalarının musiqilərinə yazdığı sözlərlə şair ölməzlik qazanmışdır. “Ögey ana” filmində “İsmayılın mahnısı” kimi tanıdığımız nəğmənin xoş sədalarına qulaq asarkən gözlərimizin önündə təbiətin gözəl mənzərəsi canlanır.

Quşlar, quşlar nə gözəl oxuyur,
Bəh,bəh, bəh, bəh,
Nə gözəl qoxuyur,
Yaşıl əlvan, sarı gül-çiçəklər.
Dağların qarlıdır,
Bağların barlıdır,
Sevirəm mən səni
Gözəl kəndimiz.

Filmdə yeni ailə münasibətlərindən, tərbiyə məsələlərində ögey ananın doğmalığından, onu ana kimi qəbul etmək istəməyən İsmayılın kövrək qəlbini məhəbbətlə, xeyirxahlıqla necə ələ ala bilməsindən söhbət açılır. Şair 1977-ci il yanvarın 20-də Bakıda vəfat etmişdir.

## Yubiley tədbirlərinin keçirilməsi

Kitabxana işi cəmiyyətin inkişafının ən əsas göstəricilərindən biri olduğundan, bu gün ədəbi irsimizin qorunub saxlanılması kitabxanaların inkişafına gedən yoldan keçir. Kitabxanada onların illərlə saxlanılması, nəsildən-nəsilə ötürülməsi müasir dünya kitabxanaları təcrübəsinə uyğun olaraq elektron resursların təşkili ilə həyata keçirilir. Çünki yaşından asılı olmayaraq hər bir istifadəçi, əsasən öz maraq dairəsinə uyğun müxtəlif elm sahələrinə dair elektron resurslarla işləməyə üstünlük verir. Təbii ki, belə bir işi internet və texniki vasitələrin köməyindən istifadə etməklə həyata keçirmək mümkündür

Bu il Azərbaycanın nəğməli şairi Zeynal Cabbarzadənin 95 yaşı tamam olur. Zeynal Cabbarzadə yaradıcılığını geniş oxucu kütləsinə sevdirmək məqsədilə respublikamızın bir çox təhsil müəssisələrində məktəblərdə, lisey və gimnaziyalarda, kitabxanalarda və bir çox mədəniyyət ocaqlarında tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Eləcə də F.Köçərli adına Respublika Uşaq

Kitabxanasında da yubiley üçün tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına şairin yaradıcılığı ilə bağlı sərgiləri, oxucu konfransını, səhərcikləri, kitab icmallarını, sual-cavab gecələrini, ədəbi-bədii gecə və görüşlərin təşkilini daxil etmək olar. Belə tədbirlər planının maraqlı və geniş olması üçün kitabxanada ən əvvəl Zeynal Cabbarzadənin həyat və yaradıcılığı ilə bağlı sərgi və stend hazırlamalıdır.

Şairin yaradıcılığını kitabxanada oxuculara tanıtdırmaq üçün oxucular arasında şeir müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqədə kiçik, orta və böyük yaş qrup oxucular iştirak edə bilərlər. Yubileydə həmçinin kiçik yaşlı oxucular üçün yazılmış maraqlı şeirlərin ucadan oxusunu təşkil etmək olar. Uşaqların diqqətini cəlb etmək üçün ucadan oxunun çox böyük və

əhəmiyyətli rolu vardır. Bu tədbir formasının uşaqların psixoloji tərbiyyəsinə, həmçinin uşaqlarda böyüklərə hörmət, yaxınlara qayğı, kiçik yaşlarından övladlarımızda vətənə bağlılıq hissinin inkişafına, onların milli ruhda böyümələrinə böyük müsbət təsiri olur.

Bütün bu müsbət halları nəzərə alaraq orta yaş qrup oxucular üçün "Məni bağışlayın" poemasının müzakirəsini təşkil edə bilərik. "Məni bağışlayın" poemasında söhbət qəhrəmanın yaşa dolduqca öz uşaqlıq illərini yada salaraq, necə dəcəllik etdiyini, güllərə, çiçəklərə, quşlara qarşı, ümumiyyətlə təbiətə qarşı necə amansız olduğundan, çəkdiyi peşimançılıqdan söhbət açılır.

Yaxşı işi yad eylər
İnsan üzü ağ olar.
Yaman işlər qövr edib,
Ürəyində dağ olar.
Ölkəmi oymaq-oymaq
Dolaşmışam, gəzmişəm.
Çəmənliyə düşəndə
Göy otları əzmişəm.
Çiçəkləri , gülləri,
Əl uzadıb üzmüşəm.
Bahar üzə güləndə,
Çölə-düzə güləndə,
Hər yan ürək açanda,
Kəpənəklər uçanda,
Çox qovub incitmişəm,
Tutub candan etmişəm

Poemada ən təsirlisi isə qəhrəmanın öz müəllimlərini necə incitdiyinə peşman olmasıdır. Qarlı qış günü sinif uşaqları ilə yığışıb məktəbin həyətində qarın üstündə sürüşkən düzəldib yağan qar ilə üstünü örturlər. Qarın altı sürüşkən olduğundan yol ilə gəlib gedənlərin altı buz olan qarın üstündən sürüşüb yıxılması onlara sanki ləzzət verirdi.

Amma baş verən bir hadisə kiçik qəhrəmanı çox peşman edir. Qarın üstündə yıxılanlardan birinin öz müəlliməsi olduğu. Poemanın davamı isə oxuduqca lap təsirlidir. Öz müəlliməsini yadına salan qəhrəman müəlliməsinə qarşı etdiyi əməlindən lap utanır. Müəlliməsini ziyarətə getməyə belə xəcalət çəkir. Şair poemada əsərin qəhrəmanını öz səsi ilə bu şıltaqlıqların sonra necə insan üçün utancverici bir hal olduğunu göstəririr.

Müəllimim çox olmuş,
Hamısını sevmişəm.
İndi də bax onları,
Yad eyləməkdir peşəm…
Rast gəlirəm ara-bir
Bəzisinə küçədə.
Bəzisi güclə gəzir,
Qocalıbdır necə də…
Qoluna da girirəm
Keçən zaman küçəni,
Deyir – oğul, çox sağ ol,
Deyən incitdim səni
Gülümsəyir ötəri
Əsir əli, ayağı.
Yenə də qarşısında
Mən bir uşaq sayağı
Dayanıram, dururam,
Boynumu da bururam.
Baxır mənə bu qoca,
Deyir: - xöşbəxt olasan,
Oğul, dünya durunca.
Tanımayır o məni
Yəqin tamam unutmuş.
Nə bilsin ki sinifdə
Mən idim uçuran quş?
Nə bilsin ki...

...Bir səhər
Qar altındaydı şəhər,
Xizəklər işə düşdü.
Uşaqlar işə düşdü!
Sürüşdükcə qar dönub
Ayaq altda buz oldu
Məktəb yolu elə bil,
Şüşə kimi düz oldu
Belə görəndə buzu,
Yaman sevindik düzü.
Yoldan keçən bilməsin –
Deyə bu hiyləmizi,
Dedik qar səpək yola,
Qoy itsin buzun izi,
Buz üstə səpdik qarı
Tez çəkildik kənara,
Gizlənib göz yetirdik
Yol keçən adamlara:
Biri sürüşdü keçdi,
Biri mayallaq aşdı,
Biri yerə oturdu,
Ayaqları dolaşdı.
Sürüşdükcə adamlar,
Yıxıldıqca adamlar,
Biz gülürdük o ki var...
Sonra çox yaman oldu.
Elə bil ki, bir anda
Hər tərəf duman oldu.
Nə edəydim gecdi, gec?!
Qışqıra bilmədim heç.
Kilidləndi dodağım.
Tərpənmədi ayağım.
Gözümü açan zaman
Gördüm müəlliməmdir

Buz üstündə uzanan
Başında qan izi var.
Göz açıb baxa bilmir,
Yerindən qalxa bilmir
Tez başını sardılar
Qaldırıb apardılar.
Çox deyindi adamlar:
Heç belə də iş olar?
Bilmirik nə oyundur,
Bilmirik nə peşədir?
Buz elə bil şüşədir.
Kim eyləyib, bunu kim?
Üzümdə qəm,
Gözümdə nəm,
Dolanıram
Küçəni.
Gətirirəm
Xəyalıma
Bir-bir olub
Keçəni.
Niyə çıxdı
Əllərimdən.
Bu dəcəllik;
Bu xəta?
Görən həkim
Qaytararmı
Onu bir də
Həyata?
Keçir-gedir
Ətrafımdan
Qatar-qatar
Adamlar.
Heç kəs bilmir
Ürəyimin

Dağlar boyda
Dərdi var.
Gözlərimin
Qarşısında
Nə adamlar
Nə küçə...
Qar üstündə
Başı qanlı
Müəllimdir
İndicə.
Hara getsəm
Tutur sanki
Yaxamdan
Öz günahım.
Sakit etmir
Ürəyimi
Nə göz yaşım,
Nə ahım.
Bəlkə öldü,
Sağalmadı
Bu yaradan
Müəllim?
Bəlkə indi
Deyir, gülür,
Yaxşılaşır,
Nə bilim?
Bəlkə dönə
Bilməyəcək
O məktəbə
Heç vədə...
Min cür fikir
Dara çəkir,
Boğur məni
Get-gedə.

Günlər bir-bir ötüşdü,
Bir ay başa yetişdi.
Uşaqlar ara-sıra
Müəllimə dəydilər
Bir gün məndə qoşuldum
Onların cərgəsinə,
Mən də qoşdum səsimi
Onların şən səsinə.
Dərsdən sonra yığışdıq
Əlimizdə gül-çiçək,
Xəstə müəllimgilə
Getdik ona baş çəkək.
Getdik...amma bilmədim.
Yolu necə getmişəm.
Getdik deyə bilmədim
Amma"günah etmişəm..."
Müəllim görən kimi
Yaman güldü gözləri,
İndidə yadımdadır
Xoş sifəti, sözləri.
Dedi:-Oğul, keç əyləş,
Xoş gəlmisən sən bizə.
Sonra dedi: - uşaqlar
Çöldə qar çıxır dizə.
Ehtiyatla gedin ha
Qarın altı buz olar...
Eşidincə bu sözü,
Əzab çəkdim o ki, var...
İndi məni tanımır,
Unutmuşdur bu qoca
Yenə məni tər basır
Qarşısında durunca.
İstəyirəm deyim ki,
Məndim düzəldən buzu...

Qoca deyir: - ay oğul,
Qoy olsun ömrün uzun!
İstəyirəm yalvarım,
Qarşısında çöküm diz,
Deyim: ey əziz insan,
Günahımdan keçiniz.
İtirirəm özümü,
Qəhər boğur, qoymayır,
Söyləməyə sözümü.
İndi dolmuşam yaşa
Keçənlərə çatmır əl
Yoxdur mənə baş qoşan,
Töhmət edən "ay dəcəl!"
Amma yaxşı olardı
Kiçilərdim birdə mən,
Dönə - dönə opəydim
Müəllimin əlindən.
Əzabımı bilərdi
Göz yaşımdan, ahımdan
Bağışlardı o məni,
Keçərdi günahımdan.
Gəlsə idi əlimdən
Kiçilərdim bir də mən,
Xoş bir bahar günündə
Diz çökərdim bu gözəl
Təbiətin önündə,
İnsanların önündə,
Deyərdim: - günahlarım
Olmuş, əgər şübhəsiz,
Bağışlayın, məni siz!
Bağışlayın məni siz!

İndi bütün günühlarının bağışlanması üçün o, hər bir fədəkarlığa hazırdır.

Sərgiləri müxtəlif başlıqlar altında hazırlaya bilərik. Məsələn: ***“Zeynal Cabbarzadə-95”, “Nəğməkar şairimiz” “Uşaqların sevimlisi” “Sənin sevimli şairin”, “Mahnıdan yoğrulmuş şair ömrü” və s.***

Təşkil edilən sərgidə şairin şəkli, kitabları, görkəmli şəxslərin onun haqqında deyilən sitatları və s. verilir.

Oxucularımıza Zeynal Cabbarzadənin kitablarını yaxşı təbliğ etmək üçün I sərgimiz şairin yaradıcılığını təbliğ məqsədi ilə yaradılmış, şairin kitablarından ibarət olan sərgidir. Sərginin daha cəlbedici olması üçün şairin şeirləri təsvir edilən müxtəlif illustrasiyalar fotoşəkillər də yerləşdirə bilərik.

Kitabxanaçı bu sərgilər qarşısında oxuculara kitablar haqında hərtərəfli, ətraflı məlumat verir.

**İndi isə “ Zeynal Cabbarzadə-95 ” adlı digər sərginin nümunəsini veririk.**

**1. Başlıq: “ Zeynal Cabbarzadə - 95 ”**

**2. Zeynal Cabbarzadənin portreti.**

**3. Seçilmiş əsərləri.**

**4.Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası.**

**5. Görkəmli insanların Zeynal Cabbarzadə haqqında söylədikləri sitatlar.**

**6. Zeynal Cabbarzadənin kitablarının nümayişi.**










Zeynal Cabbarzadə. Seçilmiş əsərləri. - 2005
Zeynal Cabbarzadə. Güllər. – B. 1974
Zeynal Cabbarzadə. Dostum gəl sözə bax. – B.1966
Zeynal Cabbarzadə. Uca dağlar başında.
Zeynal Cabbarzadə. Sizin səsiniz. – B.1963

**7.Şeir parçası:**

Mən bu qumların üstə keçirmişəm illəri,
Ərköyün uşaq kimi yetmişəm boya - başa.
Qarış-qarış gəzmişəm qayalı sahilləri,
Sulara heyran-heyran çox etmişəm tamaşa.
Yadımdadır indi də, daş atıb tor qurduğum
Havadakı quşlara, sudakı balıqlara;
Xatirə qalsın deyə çoxlu nişan vurduğum,
Sinəsi düyüm – düyüm o sərt qayalıqlara.

**Həmin sərginin hazırlanmasında Zeynal Cabbarzadə haqqında deyilən aşağıdakı sitatlardan da istifadə etmək olar.**

## Sitatlar:

Bu gün Zeynal Cabbarzadənin özü yoxsa da, şeirləri, poemaları, nağılları, və mahnıları var. Onun mahnıları küçə-küçə, şəhər-şəhər dolanır, həmişə radiodan televiziyadan konsert salonlarından səslənir. Zeynal əsrdaşlarının könlünə verdiyi sevincdə, fərəhdə yaşayır. Zeynal bizim nəğmə yazan şairlər arasında birinci yer tutanlardandır.

Zeynal Cabbarzadənin şeirləri ipi qırılmış köhnə muncuqlara bənzəyir, yumurlanaraq küncə-bucağa qısılıb.

**Xalq şairi Rəsul Rza**

Həyatımın və yaradıcılığımın ən yaxşı səhifələri bizim xalqın gözəl və maraqlı şairi Zeynal Cabbarzadə ilə bağlıdır. Bütün yaxşı mahnılarım üçün mən Zeynala borcluyam. O, təkcə şair deyildi, sözün həqiqi mənasında həmdə bəstəkar idi. Onunla birlikdə işlədiyim günləri iftixarla xatırlayıram.

**Bəstəkar, Xalq artisti.**
**Tofiq Quliyev .**

Zeynal Cabbarzadə uşaq şerinin, uşaq nəğməsinin əsl ustası idi. Nə yazırdısa yadda qalır, tez əzbərlənirdi. Onunla birlikdə işlədiyim günləri iftixarla xatırlayıram.

**Nəriman Süleymanov**

Bilirik ki, Zeynal Cabbarzadə adətən nəğməkar şair kimi tanınmışdır. Şairin yaradıcılığının təbliği üçün sərgilərin, təşkilində, slaydların hazırlanması zamanı sözləri Zeynal Cabbarzadəyə məxsus olan filmlərimizə yazılmış mahnılardan, həmin filmlər haqqında maraqlı məlumatlardan istifadə edə bilərik . Həmin filmlər bunlardır:

**Səadət yolu ilə (film, 1956)**
**Ulduz (film, 1964)**
**Əbədi qardaşıq (film, 1965)**
**Bakıda küləklər əsir (film, 1974)**
**Görüş (film, 1955)**
**Bizim Cəbiş müəllim (film, 1969)**
**Telefonçu qız (film, 1962)**
**Ögey ana (film, 1958)**
**Koroğlu (film, 1960)**



Hamımızın sevərək izlədiyi Ulduz filmi bəstəkar Süleyman Ələsgərovun eyniadlı operettasının motivləri əsasında ekranlaşdırılmışdır. Filmin məzmununda kəndin qabaqcıl ziyalılarının elmlə heç bir əlaqəsi olmayanlara, vəzifəpərəstlərə qarşı apardıqları mübarizədən danışılır. Film üzərində işləyənlər əsərin müəllifi : Süleyman Ələsgərov, ssenari müəllifi Ağarza Quliyev, Hüseyn Nəcəfov, Yuli Fogelman, Libretto : Sabit Rəhman Mahnıların mətni Zeynal Cabbarzadə olmuşdur.




Görüş filmi isə quruluşçu rejissor Tofiq Tağızadənin, aktyor Əliağa Ağayevin aktrisa Barat Şəkinskayanın, aktyor Ceyhun Mirzəyevin kinoda ilk işləridir. Filmin ssenari müəllifi Ədhəm Qulubəyov, Nina Mustafayeva, quruluşçu rejissoru Tofiq Tağızadə, quruluşçu operatoru Teyyub Axundov və Cavanşir Məmmədov, quruluşçu rəssamı Cəbrayıl Əzimov, Elbəy Rzaquliyev, bəstəkarı Tofiq Quliyev, səs operatoru İlya Ozerski, rejissoru Əjdər İbrahimov, mahnıların mətni isə Zeynal Cabbarzadənindir.




Məşhur “Bizim Cəbiş müəllim” filmindəki hadisələr isə II Dünya müharibəsi illərində Bakıda cərəyan edir. Burada müharibə illərində qələbə naminə hər cür maddi çətinliklərə dözüb, ailəsini halal zəhmətlə dolandırmağa çalışan, vətənin azadlığını hər şeydən yüksək tutan sadə adamların mənəvi ucalığından söhbət açılır. Filmin ssenari müəllifi Maqsud İbrahimbəyov, quruluşçu rejissoru Həsən Seyidbəyli, quruluşçu operatoru Arif Nərimanbəyov, bəstəkarı Emin Sabitoğludur. Mahnıların mətninin müəllifi isə Zeynal Cabbarzadə və Teymur Elçindir.

Vətəpərvərlik hissinin formalaşması insanda hələ gənc yaşlrından meydana gəldiyindən, oxucular arasında vətənpərvərliyin təbliği, vətənə məhəbbətin aşılanmasında kitabxanamızın üzərinə böyük vəzifələr düşür. Kitabxanada bu mövzuda oxucularla mütəmadi tədbirlər keçirilir. Bu tədbirlər sırasına bu il 95 illik yubileyini qeyd etdiyimiz vətəninə bağlı, sevimli şairimiz, nəğmələri ilə şöhrət qazanmış, yaradıcılığında Azərbaycanın, onun təbiətinin gözəlliklərini tərənnüm edən Zeynal Cabbarzadədən bəhs

edən “Vətəninə bağlı sənətkar” başlığı altında keçirilən konfransı da daxil edə bilərik. Zeynal Cabbarzadə yaradıcılığında Vətənin gözəlliyinin tərənnümü, vətənə məftunluq çox olduğundan uşaqlar üçün daha xeyirlidir. Zeynal Cabbbarzadənin yaradıcılığını daha dərindən öyrənmək üçün kitabxanada kitab müzakirəsinin keçirilməsi daha vacibdir. Bu baxımdan da, Zeynal Cabbarzadənin “AVRASİYA PRESS” nəşriyyatında çapdan çıxmış “Seçilmiş əsərləri” kitabının müzakirəsini keçirə bilərik. Kitabda yazıçının “Müxtəlif şeirlər”, “Təbiət”, “Nəğmələr”, “Vətən”, “Müharibə” başlıqları ilə verilmiş şeir və poemaları toplanmışdır. Kitab Zeynal Cabbarzadənin 1966 - cı ildə Azərnəşr tərəfindən nəşr edilmiş “Dostum gəl sözə bax!”, 1974-cü ildə Azərnəşr tərəfindən nəşr edilmiş “Güllər” kitablarının təkrar nəşridir. Kitabın ön sözünün müəllifi isə Xalq şairi Rəsul Rza olmuşdur. Kitabxanada məktəblilərlə “Mənə belə gəlir ki” şeiri ətrafında uşaqlarla “Vətən nə deməkdir? ” adlı mövzu müzakirəsi də keçirmək olar. Vətən deyəndə göz önünə insanın doğulub boya başa çatdığı, suyundan icib, torpağından bəhrələndiyi yerlər gəlir. Vətən haqqında çoxlu şeirlər yazılıb. Zeynal Cabbarzadənin İçərişəhərdən bəhs edən “İçərişəhər” şeiri təkcə onun doğulduğu “İçərişəhər” in divarlarının, mənzərəsinin təsviri ilə bitmir. Burada Cənublu, Qərbli Azərbaycan torpağının mənzərəsi canlanır. Zeynal Cabbarzadə üçün Vətən bölünməzdir. O, daima Naxçıvanın, Savalanın qarlı dağlarının Xəzərin rahatsız sularının narahatçılığını çəkir.
Söhbətin daha maraqlı olması üçün uşaqlarla müzakirəni aşağdakı suallarla başlaya bilərik.

1. Vətən sizin üçün nədir?

   ☺ ________________________________

2. Vətəni niyə sevməliyik?

   ☺________________________________

3. Vətən haqqında hansı şairlərin şeirlərini oxumusunuz?

   ☺ ______________________________

4. Zeynal Cabbarzadə kimdir?

   ☺ ______________________________

5. Mənə belə gəlir ki,

   Bütün dünya mənimdir.
   Hər eli, hər ölkəsi
   Öz doğma məskənimdir.
   Amma, ellər içində
   Bir ovuc torpağım var.
   Bir ovuc torpağımda
   Min cürə növrağım var.
   Dövlətim, bayrağım var.
   Səadətim, ağ günüm,
   Hissim, həyəcanımdır,
   Öz Azərbaycanımdır!

Zeynal Cabbarzadənin " Mənə belə gəlir ki..." şeirindən olan bu parçada şair Azərbaycanı necə tərənnüm edir?

☺ ________________________________

6. Mənə belə gəlir ki,

   Mənim üçün yaranmış
   Bütün dillər, lisanlar
   Hamısı gözəl, şirin

Hamısı qədim dərin...
Amma dillər içində
Biri mənim öz dilim.
Şöhrətimdir, şanımdır.
Onun yurdu məskəni
Öz Azərbaycanımdır!

misraları ilə  şair doğma ana dilini necə qiymətləndirir?

7. Zeynal Cabbarzadənin vətən mövzusundan bəhs edən daha hansı şeirlərini öxumusunuz?
   ☺________________________________

8. Şairin sözlərinə yazılmış hansı mahnıları eşitmisiniz?
   ☺________________________________

9. "Uşaqlara" poemasında məktəbli uşaq öz müəlliminə qarşı etdiyi hansı hərəkətlərinə görə utanırdı?
   ☺________________________________

10. Bu poemada kiçik qəhrəmanın hərəkətini necə qiymətləndirirsiniz?
    ☺ ________________________________

Kitabın "Vətən " başlıqlı bölməsindəki şeirlərində şairin Vətənə, Azərbaycan torpağının dağlarına, düzlərinə, çaylarına necə qırılmaz tellərlə bağlı olduğu əks olunur. Onun fikrincə Vətən bölünməzdir: Cənub qərbində Naxçıvan torpağı, Şərqdə Xəzərin suları, Şimalında qarlı Qafqaz dağları, Cənubunda Savalanın qarlı dağları – hamısı Azərbaycandır.

Azərbaycan elimdir;
Bakı yuvam məskənim.
Gilavarı, xəzrisi

Nəğməm, səsimdir mənim...
Mənə vüqar gətirir
O başı qarlı dağlar
Ürəyimdə Şuşanın
Buz havası hər an var.

Onun fikrincə Vətən məhəbbəti, xalq məhəbbəti müqəddəsdir. Şair hər an Azərbaycanın hansı yerində olursa olsun oturub Qarabağın musiqi beşiyi sayılan Şuşanı xatırlayır.

Müəllif kitabda müharibə haqqında yazdığı "Min beş yüz əlli" , "Xatirat", "Onun qızı", "Dostum", "Sevir, sevməyir", "Bahar gəlib", "Ay doğanda gələrdi", şeirləri ilə öz qarşısında müharibənin gedişinin, ayrı-ayrı döyüşlərin geniş, əhatəli təsvirini vermək məqsədi qoymamışdır. Hər bir şeirdə müəllif özünün cəbhə xatirələrini yada salır. Vaxtilə işlətdiyi silahına qələbə çaldıqları üçün öz minnətdarlığını bildirir. Müharibə onun səhhətində nə qədər acı izlər buraxsa da o cəbhə xatirələrini, cəbhə yoldaşlarını böyük məmnuniyyətlə xatırlayır. Oxucunu cəbhə həyatına daha da həvəsləndirir.

Kiçik yaşlı uşaqlar üçün olan bölmədə "Ceyran qızıma", "Oğluma", "Əli gülsün" "Uşaqlara" və s. şeirləri verilmişdir. Bu şeirləri uşaqlara təqdim etməklə şair ədəbin, mərifətin, ağsaqqala hörmətin insana necə yaraşıq verdiyini göstərir.

Qoy bilsin o kiçik, o ədəbli qız,
Qoy bilsin bu sirri bütün uşaqlar.
Zeynal əmiləri bu şeiri yalnız,
Gözəl uşaqlara yazmış yadigar.

Xalqımızın gözəl, nəğməkar şairi, uzun illər Sovetlər birliyində nəşr olunan "Pioner", sonrakı "Günəş" jurnalının redaktoru Zeynal Cabbbarzadənin bu il anadan olmasının 95 ili tamam olur. Zeynal Cabbarzadə uşaqlar üçün 250-dən çox gözəl və rəngarəng mahnılar üçün şeirlər yazmışdır.

Hələ 1950-ci illərdə zəmanəsinin böyük bəstəkarı Qara Qarayev onun sözlərinə özünün ilk uşaq mahnısı olan “ Sülh ” haqqında mahnısını bəstələmişdir. Bu mahnı illərlə Üzeyir Hacıbəyov adına musiqi Konservatoriyasında tələbələrin dərsliklərini, məktəblərimizdə musiqi dərslərini, mədəniyyət müəssisələrində keçirilən tədbirləri məktəblilərin ifası ilə bəzəmişdir. Bundan əlavə Zeynal Cabbarzadənin sözlərinə Fikrət Əmirovun “Quşlar”, “Qatar”, “Quzuyam”, “Bahar gəlir”, Tofiq Quliyevin “Ögey ana” filminə yazdığı “ İsmayılın mahnısı ”xalqımız tərəfindən hələ də sevilərək dinlənilir.

Tapmacalar əsasən müəllifsiz olub, insanın zehni qabiliyyətini, ağlının çevikliyini yoxlamaq məqsədilə yaradılan ədəbi janrdır. Tapmacada hər hansı bir əşyanın əlaməti üstüörtülü şəkildə verilir və ya başqa bir əşyaya bənzədilir, onun tapılması qarşı tərəfdən tələb olunur. Məlumdur ki, uşaq ədəbiyyatında yer alan tapmacaların köməyi ilə uşaqlarda müəyyən əşya və hadisə haqqında mühakimə yürütmək vərdişi, uğurlu nəticə çıxartmaq bacarığı, hazırcavablıq tərbiyə olunur. Məhz Zeynal Cabbarzadənin uşaqlar üçün yaratdığı “Tapmacalar” şeiri uşaqlar üçün çox dəyərlidir. “Tapmacalar” şeiri bir daha onun uşaq psixologiyasını, romantik aləmini gözəl bildiyini təsdiq edir. Kitabxanada müxtəlif mövzu üzrə keçirilən söhbətlərdə, səhərciklərdə bu tapmacalardan istifadə edə bilərik. Bu da uşaqlarda düşünmə qabiliyyətini yaxşılaşdırmaqla yanaşı balaca oxucularımızın kitabxanaya cəlb olunmasına maraq yaradar.

**Kitabxanaçı:** Uşaqlar deyin görək heç tapmaca bilirsinizmi? Sevimli şairimiz Zeynal Cabbarzadə də sizlər üçün maraqlı olan bu janra müraciət etmiş, “Tapmacalar” şeirini yazmışdır. Gəlin birlikdə bu şeiri dinləyək.

**Təbiət haqqında:**

**I Oxucu:** Çöldə, düzdə qaçaram,
Hər qapını açaram.
İstəsəm ağacları
Kökündən qopararam.
İstədiyim tərəfə
Adam da apararam
Adımı tapın görək
Söyləyin nəyəm?.. **(Külək)**

**Heyvanlar haqqında:**

Boynum uzundur,
Bədənim gödək.
Gözlərim iri,
Qulaqlarım şək.
Görübsünüzmü?
Məni bir dəfə?
Tapın adımı **(Zürafə)**

Qaldırdığım yük,
Özümdən böyük
Yerin altında
Yaşayıram mən (**Qarışqa)**

Uşaqların sevimlisi Zeynal Cabbarzadənin "Alagöz", "Sürəyya", "Badamlı" və s. mahnılarını dəfələrlə eşitmişik. Rauf Adıgözəlov - "Neyləsin" mahnısı - musiqisi:Vasif Adıgözəlov ; Anatollu Qəniyev - Yel əsər ("Yenilməz batalyon" filmindən Teymurun mahnısı) – musiqisi : Cahangir Cahangirov ; Rəşid Behbudov - Bakı - musiqisi: Tofiq Quliyev ; Akif İslamzadə - Axşam mahnısı – musiqisi Tofiq Quliyev ; Şövkət Ələkbərova - Laylay ("Ögey ana"

filmindən) - musiqi : Tofiq Quliyev ; Şövkət Ələkbərova - İlk bahar – musiqi : Tofiq Quliyev ; "Qaya" vokal ansambılı - Toy mahnısı – musiqi :Tofiq Quliyev ; Mirzə Babayev - Sən mənimsən, mən sənin – musiqi : Tofiq Quliyev ; Şövkət Ələkbərova - Çay - musiqi: Emin Sabitoğlu ; Rübabə Muradova - İntizar (Canıma qəsd eyləyən) - musiqi: Səid Rüstəmov ; Rəşid Behbudov - Sürəyya - musiqi: Səid Rüstəmov ;"Çiçəklən, Vətənim" (1964) - musiqi: Xəyyam Mirzəzadə və E. Mahmudov Uşaq mahnıları
"Canbala" qrupu - Bahar gəlir. Musiqi: Fikrət Əmirov;
Qatar. Musiqi: Fikrət Əmirov ; Quzum. Musiqi: Fikrət Əmirov
Zeynal Cabbarzadə yaradıcılığını gələcək nəsillərə çatdırmaq üçün şairin şeirlərindən, nəğmələrindən, tapmacalarından istifadə etməklə uşaqlara müxtəlif tədbirlər hazırlanması məqsədə uyğundur. İlk Öncə şairin yaradıcılığı haqqında uşaqların nə dərəcədə məlumatlı olmasını öyrənmək üçün rəy sorğusu keçirə bilərik.

## Ssenari:

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. Şairin yubileyi münasibətilə, kitabxanada "Elimizin nəğməkar şairi" adlı ədəbi-bədii gecəni təşkil etmək olar. Gecəyə Zeynal Cabbarzadə yaradıcılığı ilə maraqlanan, yaxından tanış olan müəllimlər, oxucular, uşaq ədəbiyyatının nümayəndələri dəvət edilir. Tədbir keçiriləcək zala şairin portreti vurulur. Zeynal Cabbarzadənin şeirlərindən müxtəlif parçalar zalın divarından asılır. Həmçinin tədbir zamanı uşaqların zövqünü oxşayan müxtəlif dekorasiyalar bəzəkli şarlar və s. istifadə edə bilərik. Zalda yuxarıda qeyd etdiyimiz şairin kitablarından ibarət, şair haqqında müxtəlif sitatlardan istifadə edilmiş sərgi yerləşdirilir. Bədii gecə şairin sözlərinə yazılmış nəğmələrdən biri ilə ilə başlayır. Tədbirin

keçiriləcəyi səhnədə şairin yaradıcılığı haqqında slayd nümayiş edilir. Slaydda şairin sözlərinə yazılmış mahnılar səsləndirilir. Bu mahnılardan Fikrət Əmirovun Zeynal Cabbarzadənin sözlərinə yazdığı “ Qatar ” mahnısı, Sülh nəğməsi, Quşlar , Əziz Vətən və b. istifadə edə bilərik.
Zeynal Cabbarzadə bir çox filmlərə bəstələnmiş mahnıların sözlərinin müəllifi olduğundan, ayrıca həmin filmlərdən parçalar təqdim etmək slaydın nümayişində daha maraqlı olar.

**I aparıcı:** Əziz qonaqlar bu gün bura nəğməkar şair kimi tanınan Zeynal Cabbarzadəni oxucularımıza xatırlamaq üçün yığışmışıq. Axı onun bu il 95 illik yubileyi qeyd olunur.

**II aparıcı:** Bədii yaradıcılığa hələ erkən yaşlarında başlayan Zeynal Cabbarzadə yazdığı şeirləri ilə Azərbaycan uşaq nəğmələrinin gözəl nümunələrini yaratmışdır. O, yaradıcılığında uşaqlar üçün 250-dən çox rəngarəng və gözəl mahnılar üçün şeirlər yazmışdır. Hələ 1950- ci ildə böyük bəstəkar Qara Qarayev Zeynal Cabbarzadənin sözlərinə özünün ilk “Sülh” haqqında mahnısını bəstələmişdir.

**I aparıcı:** Bundan əlavə nəğmə dərslərində eşitdiyimiz bir çox mahnılar var ki, o mahnıların sözlərinin müəllifi Zeynal Cabbarzadədir. Məsələn “ Ögey ana filmindən İsmayılın mahnısı ”, Fikrət Əmirovun “ Qatar ”, “ Quşlar ”, “ Bahar gəlir ” və s.

**I aparıcı:** Dünyada elə bir bəstəkar, elə bir musiqiçi, elə bir şair yoxdur ki, onun ana laylası tək möhtəşəm bir əsəri olsun. Bütün mahnılardan artıq sevdiyimiz şirin bir nəğmədir ana laylası! Səsi ruhumuzu oyadar. Sanki bir rəssam fırçası ilə həyatın rəsmini çəkib ana laylası! Ana laylası

haqqında yüzlərlə mahnı, şeir, nəğmə var. Klassik xanəndələrimizdən tutmuş müasir ifaçılarımıza qədər hər kəs öz repertuarında ana mövzusuna xüsusi yer verib. Zeynal Cabbarzadənin də ”Laylayı ” ana laylası qədər şirin və təsirlidir.

*( Səhnədə mahnı səslənir )*

**LAYLAY**

Yat gözümün qarası,
Ciyərimin parası.
Laylay, ürəyim laylay,
Arxam, dirəyim laylay!
Göydə bulud sovuşsun,
Kirpiklərin qovuşsun,
Laylay, quzum, a laylay,
İki gözüm, a laylay!
Sən nə şirin balasan,
Görüm yüz il qalasan.
Laylay, baharım, laylay.
Laylay, nübarım, laylay!..

**II aparıcı:** Həqiqətən də ana laylaylarından su içmiş bu nəğmənin ahəngindəki gözəllik insanın qəlbinə qəribə rahatlıq gətirir. Avazındakı şirinlik şairin folklorumuzdan necə bəhrələndiyini göstərir.

**II aparıcı:** Yer kürəsi, öz oxu ətrafında olduğu kimi, Günəşin də ətrafında müəyyən orbit üzrə qərbdən şərqə doğru hərəkət edir. Bu da planetimizdə fəsillərin yaranmasına səbəb olur**.**

*Səhnəyə ilin fəsillərini tərənnüm edən “Çox sevirəm” şeirini söyləmək üçün uşaqlar gəlir. Səhnə təbəti tərənnüm edən hər fəslə uyğun dekorasiyalarla bəzədilir. Uşaqlar söylədikləri fəslə uyğun paltarlar geyinirlər.*

**Çox sevirəm**

**I oxucu**: Baharı çox sevirəm,
Hər tərəf yaşıllaşır.
Dağlardan gələn sular
Sel olub, aşıb-daşır.
Qaranquşlar eyvanda
Qurur öz yuvasını.
Çox sevirəm baharın
Sərin, saf havasını

**II oxucu:** Mən yayı çox sevirəm
Göy üzü təmiz olur
Yayda çox sevdiklərim
Çay olur, dəniz olur.
Günəş qızdırır yeri,
Ağaclar gətirir bar.
Yaylaqlarda dincəlir
Yay gələndə adamlar.
Üzümlər şirinləşir,
Əncirlərdən axır bal.
Bağbanlar bol meyvəni
Yığmağa tapmır macal.
Yaşıl xalı sərilir,
Düzənlərə, dağlara.
Yay fəsli ləzzət verir
Balaca uşaqlara

**III oxucu:** Payızı çox sevirəm
Havalar gözəl olur
Qızıl rəngli yarpaqlar
Tökülür xəzəl our.
Ağaclardan dərilir
Alma, armud, heyva, nar.
Hərdən dolur boşalır
Göydə uçan buludlar.

**IV oxucu**: Mən qışı çox sevirəm

Çünki qarı bol olur.
Buz salxıma bənzəyir.
Küçələri bəzəyir.
Buz üstə sürüşürəm.
Qorxutmayır qar məni.
Anama söyləyirəm
Gəzməyə apar məni

**I Aparıcı**: Təkcə şairliklə deyil, publisistika ilə məşğul olan Zeynal Cabbarzadə, gördüyü ağır müharibənin nəticəsi olaraq bəlkə də uzun ömür sürmədi. Az yaşasa da, mükəmməl yazıb - yaratdı. Müxtəlif mövzularda qələmə aldığı şeirlər şairin ömrünü uzatdı. Onun dillərə düşmüş nəğmələri bu gün də sevilə-sevilə oxunur. Uşaqlara ünvanlanmış şeirləri, poemaları bu gün ədəbiyyatımızın incilərinə çevrilib.

**Son**

Ədəbiyyat siyahısı:

1. Sizin səsiniz. – B.: Azərnəşr, 1963. – 84 s.
2. Seçilmiş əsərləri. – B.: AVRASİYA PRESS, 2005. – 222 s.
3. Dostum gəl sözə bax. – B.: Azərnəşr, 1956. – 381 s.
4. Uca dağlar başında. – B.: Gənclik, 1980. – 221 s.
5. Namazov Q // Azərbaycan uşaq ədəbiyyatı. – B.: 2007. – 444 s.
6. Güllər. – B.: Azərnəşr, 1974. – 224 s.
7. Xalqımızın nəğməkar şairi // Savalan. – 2001. – 16 yanvar.
8. Mahnıdan yoğrulmuş şair ömrü // Savalan. – 1994. – 6 mart.
9. Nəğməkar şair // Azərbaycan. – 2010. – 25 dekabr.
10. Sənin sevimli yazıçın // Pioner. – 1978. – N3

**Zeynal Cabbarzadənin 95 illik yubileyi münasibəti ilə Respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:100
Pulsuz